# Vətən Müharibəsi qəhrəmanlarına, əlillərə və şəhid ailələrinə mənzillər verilib

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən daha 50 şəhid ailəsi, müharibə əlili və Vətən Müharibəsi Qəhrəmanına mənzillərin sənədləri təqdim edilib. Mənzillərin təqdimedilmə mərasimində Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Əliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun ötən il Vətən Müharibəsində əldə etdiyi möhtəşəm tarixi Zəfərdən bəhs edib. 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış doğma torpaqlarımızın azad edildiyini, bu gün həmin ərazilərimizdə böyük quruculuq işlərinin aparıldığını diqqətə çatdırıb.***

Bildirilib ki, müharibədən sonrakı dövrdə şəhid ailələrini, müharibə iştirakçılarını, müharibədə yaralanmış hərbçiləri, müharibə əlillərini, erməni terrorundan zərər çəkənləri əhatə edən çevik və genişmiqyaslı sosial dəstək tədbirləri həyata keçirilir. Eyni zamanda, şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatı proqramı dəfələrlə genişlənib. Dövlət başçısının sərəncamı 2020-ci ildə hərbi əməliyyatlarda, o cümlədən Vətən müharibəsində şəhid olanların ailələri və əlillərinə 2021 – 2025-ci illərdə mərhələli şəkildə 11 min mənzil və fərdi ev təqdim edilməsi nəzərdə tutulub. O cümlədən 2021-ci ildə onlara 3 minədək mənzil və fərdi ev verilməsi işləri aparılır ki, bu da mənzil və fərdi evlə təminat proqramının 2018-ci ilə nisbətən 5 dəfə genişləndiyini göstərir.

Eyni zamanda, Prezident İlham Əliyevin digər sərəncamına əsasən, Vətən Müharibəsi qəhrəmanlarının və onların ailə üzvlərinin də ƏƏSMN tərəfindən mənzillə təminatına başlanıb. Tədbirdə 2021-ci ilin planı üzrə artıq 1650 mənzilin şəhid ailələri və müharibə əlillərinə, habelə Vətən Müharibəsi qəhrəmanlarına verildiyi, ümumilikdə, indiyədək bu kateqoriyadan olanlara 11 minə yaxın mənzil və fərdi ev təqdim edildiyi diqqətə çatdırılıb. Bildirilib ki, müharibə əlillərinin minik avtomobilləri ilə təminatı tədbirləri də uğurla davam edir. 2018 – 2020-ci illərdə onlara 1300-dək, bu ilin ötən dövründə isə daha 150 avtomobil, ümumilikdə, indiyədək 7350 avtomobil verilib.

Mənzillə təmin edilən şəhid ailələri, müharibə əlilləri və Vətən Müharibəsi Qəhrəmanları onlara göstərilən yüksək diqqət və qayğıya, sosial təminatlarının gücləndirilməsi məqsədilə aparılan ardıcıl işlərə, bu gün yeni mənzillə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.




***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 5 oktyabr.- S.10.